# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## Təlim prosesində yeniyetmələrin diqqət və hafizəsinin inkişaf xüsusiyyətləri

**Nurəngiz Tofiq qızı Rzayeva**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** nurengiz.rzayeva@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d. Ç.Q. Verdiyeva

**Açar sözlər:** diqqət, hafizə, seçicilik, idrak maraqları, impulsivlik
**Ключевые слова:** внимание, память, селективность, познавательные интересы, импульсивность
**Key words:** attention, memory, selectivity, cognitive interests, impulsivity

Yeniyetməlik yaş dövründə diqqətin inkişafında xeyli üstün cəhətlər yaranır. Diqqətin davamlılığı və həcmi, paylanması kimi xüsusiyyətləri keyfiyyətcə yeni istiqamətdə inkişaf edir, onların ixtiyariliyi yüksəlir. Bununla belə təlim fəaliyyətində yeniyetmələrin diqqətinin bir sıra mənfi halları da nəzərə çarpır, təəssürat və yaşantıların bolluğu, coşqun fəallıq və impulsivlik, mütəhərrik davranış onlarda diqqətin tez-tez yayılmasına və davamsızlığına gətirib çıxarır. Psixoloqlar bu halın psixoloji səbəblərini müxtəlif amillərlə-iş şəraiti, materialın məzmunu, şagirdin əhval-ruhiyyəsi və psixi vəziyyəti ilə əlaqələndirirlər.

Diqqətin seçiciliyi yeniyetmələrdə çox aydın xarici ifadəyə malik olur. Sevmədiyi bir dərsdə dalğın və diqqətsiz olan bir şagird başqa bir dərsdə özünü olduqca diqqətli aparır, fəallıq göstərir. Yeniyetmələrlə təlim prosesində növbəli, cəlbedici, fəal iş formaları, maraqlı dərslər onların təlimə cəlb edilməsində əhəmiyyətli rol oynayır. N.F. Dobrıninin tədqiqatları sübut etmişdir ki, yeniyetmələrdə iradi səylə əlaqələnmiş ixtiyari diqqət ixtiyaridən sonrakı diqqət adlandırılan diqqətin məhsuldar fəaliyyətinə təminat yaradır (3, s. 304).

Yeniyetməlik dövründə diqqətin fəaliyyətində "maraq effekti" bütün aydınlığı ilə müşahidə olunur. Şagirdin bir dərsdə həddindən artıq diqqətli, başqa bir dərsdə isə diqqətsiz və dalğın olması daha aydın şəkiidə göstərir ki, hər şey iş şəraitindən, materialın məzmunundan, müəllimin pedaqoji səriştəsindən və yeniyetmənin dərsə münasibətindən asılıdır. Nəzərə almaq lazımdır ki, yeniyetmə üçün maraqlı dərs heç də sadəcə olaraq əyləncəli dərs deyildir (1, s. 69).

Müəllim dərsdə yeniyetmələrdə idrak maraqlarının aktivləşməsinə xüsusi diqqət yetirdikdə yaradıcılıq üçün əlverişli şərait yaratdıqda diqqət problemi öz-özünə həll olunur. Bu yaş dövründə ixtiyari diqqətdən sonrakı diqqətin epizodik surətdə olsa da, tez-tez təzahür etməsi bu baxımdan təsadüfi deyildir. Diqqətin həcminin nəzərə çarpacaq dərəcədə genişlənməsi, diqqətin keçirilməsi xassəsinin inkişafı da yeniyetməlik yaşı üçün səciyyəvidir (2, s. 212).

Yeniyetməlik yaş dövründə diqqətin inkişafında özünəməxsus xüsusiyyətlər müşahidə olunur. Bu dövrdə diqqətin tez-tez yayınması halları özünü göstərir. Yeniyetmənin təlim fəa-

liyyətindəki əsaslı dəyişikliklər, tələbat və maraq dairəsinin dəyişməsi, şagirdin ayrı-ayrı fənlərə, müəllimlərə münasibəti, keçirdiyi psixi hallar, yeni və rəngarəng təəssürat bolluğu, cinsi yetişmənin başlanması ilə əlaqədar güclü təəssüratlar, yaşlılıq hissi ilə bağlı problemlər və s. diqqətin təzahür və inkişafına, burada mənfi halların özünü göstərməsinə səbəb ola bilir.

Təlim və tərbiyənin təsiri altında yeniyetmələrdə sabit ixtiyari diqqət inkişaf etməyə başlayır. Diqqətin həcmi, davamlılığı, paylanması nisbətən məhsuldar xarakter daşıyır (4, s. 53).

Yeniyetmələrin idrak maraqlarının inkişafında mütərəqqi dəyişikliklər nəzərə çarpır. Onlarda yaranan seçici maraq (lazımlı və lazımsız, əsas və vacib olmayan) fənlərə qarşı onla münasibətlərdə özünü göstərir. Onlar vacib hesab etdikləri fənlərə daha çox diqqət yetirir, müxtəlif mənbələrdən sərbəst istifadə etməklə biliklərini zənginləşdirmək və dərinləşdirmək təşəbbüsləri göstərir, dərsdən sonra müxtəlif hazırlıq kurslarına gedir, xarici dilləri, kompüteri öyrənməyə xüsusi diqqət yetirirlər.

Təlim prosesində diqqətin paylaşdırılması daha da güclənir. Yeniyetmə məsələni həll edir, astaca çay içir, parta altından kitab oxuyur, dəqiqliklə sinifdəki situasiyanı izləyir. Bu baxımdan ifadəlilik dərəcəsinə görə diqqətliliyi daxili və xarici diqqətə ayırırlar. Odur ki, təlim prosesində diqqətin paylanmasına yüksək tələblər qoyulur. Məsələn, riyaziyyat dərslərində məsələlər çox çətin olduğundan şagirdlər tapşırığın icrasında işarələrin dəyişməsinə diqqət yetirə bilmirlər. Fikirlərə diqqətlilik savadlılıq səviyyəsini tez-tez aşağı salır. Təlim fəaliyyəti refleksiyaya əsaslanaraq özünənəzarət tələb edir. Odur ki, diqqətin bütün xüsusiyyətləri inkişaf edir. Yaxşı oxumaq istəyi yeniyetmələrdə təlim motivasiyasının inkişafı zamanı mümkündür.

İnsanın psixi həyatının ümumi məzmununda hafizə bir idrak prosesi kimi müstəsna əhəmiyyətə malikdir. Hafizənin təlim prosesində mühüm rolu vardır. Belə ki, sistematik təlim bilavasitə hafizənin iştirakı sayəsində real istiqamətə yönəldilə bilər. Hafizənin təşəkkülü və inkişafı şagirdin bütün psixi xassə və xüsusiyyətlərinin təzahürü fonunda reallaşır. Hafizənin başqa psixi proseslərlə qarşılıqlı əlaqəsi mnemik fəaliyyətin funksional bir sistem kimi formalaşması üçün əlverişli zəmin yaradır.

Yeniyetməlik yaş dövründə hafizənin inkişafında şagirdin təlim fəaliyyəti mühüm rol oynayır. Sistematik təlim prosesində biliklərin mənimsənilməsi zərurəti şagirdin mnemik fəaliyyəti qarşısında yeni və ciddi tələblər qoyur. Şagirdin mnemik fəaliyyəti ilə təlimin məqsədləri arasında əlaqə yaranır. Bir sözlə, şagird öz mnemik fəaliyyətini mənimsəmənin məqsədlərinə tabe etməyə fəal səy göstərir. Məhz bu istiqamətdə şagird biliklərin mənimsənilməsinin səmərəli üsullarına yiyələnməyə başlayır.

Təlim prosesində yeniyetmənin mənimsədiyi üsullar içərisində məntiqi, mənalı yaddasaxlama bacarığının təşəkkülü müstəsna əhəmiyyətə malikdir. Məntiqi yaddasaxlamanın təşəkkülü sayəsində şagirdin hafizəsi funksional cəhətdən inkişaf edir və onun yeniyetmənin idrak fəaliyyətində rolu daha da yüksəlir. Belə olduqda yaddasaxlama prosesi qavrayış çərçivəsindən kənara çıxaraq təfəkkürlə qarşılıqlı əlaqə və asılılıq şəraitində təzahür edir. Yaranmış funksional qarşılıqlı əlaqənin zəminində yaddasaxlama prosesinin səmərəliliyi artır və şagirdlər mənimsəmənin daha əlverişli üsullarına yiyələnirlər.

Yeniyetməlik yaş dövründə əyani xarakterli materialları və bilavasitə qavrayış prosesinə əsaslanan məlumatları şagirdlər daha yaxşı mənimsəyir və yadda saxlayırlar. Apardığımız psixoloji müşahidələr göstərir ki, bu yaş dövründə əyani-obrazlı yaddasaxlama əsasında təlim materialının mənalı və məntiqi surətdə dərindən mənimsənilməsi imkanı daha da reallaşır və bu əsasda şagirdlər biliklər sistemini müvəffəqiyyətlə öyrənərək onu hafizələrində möhkəmləndirirlər.

Təlim prosesində mücərrəd xarakterli təlim materiallarının mənimsənilərək yadda saxla-

nılması yeniyetmələrdə o qədər də çətinlik yaratmır. Lakin təlimin məzmununda baş verəm dəyişikliklər yeniyetmənin hafizəsinin sözlü-mənalı xarakter daşıması üçün əlverişli zəmin yaradır. Odur ki, şagirdlər əyani materialla yanaşı, sözlü-məntiqi materialı mənimsəməyə və yadda saxlamağa başlayırlar. Öyrənilən və mənimsənilən təlim materiallarının daima mənalandırılaraq yadda saxlanılması yeniyetmənin hafizəsinin sözlü-məntiqi səciyyə daşıması üçün geniş imkanlar açır. Məhz bu əsasda yeniyetmələrdə ümumiləşmiş və məntiqi hafizə sürətlə inkişaf etməyə başlayır.

Aparılan psixoloji tədqiqatların nəticələri göstərir ki, yaddasaxlamanın və yada salmanın səmərəliliyinin yüksəlməsində təlim materiallarının mənalandırılaraq öyrənilməsinin böyük əhəmiyyəti vardır. Mexaniki, yəni əzbərləməyə istinad edən yadda saxlama isə hafizə fəaliyyətinin məzmunluluğunun inkişafına ləngidici təsir göstərməklə şagirdin idrak fəaliyyətinin səmərəliliyini təmin etmir.

Psixoloji təcrübə göstərir ki, mexaniki öyrənmə mənimsənilən materialın məna əlaqələrinə əsaslanmır. Vaxtilə alman psixoloqu Ebbinhauzun apardığı təcrübələr göstərmişdir ki, 12 mənasız hecanı yadda saxlamaq üçün 16,5 təkrar tələb olunduğu halda, 480 mənalı hecanı yadda saxlamaq üçün 8 təkrar kifayət etmişdir. Deməli, mənalı yaddasaxlama böyük üstünlüyə malik olmaqla mexaniki yaddasaxlamadan keyfiyyətcə və əsaslı surətdə fərqlənir. Təlim materialının başa düşülməsi, onun ayrı-ayrı hissələrində əks olunan fikirlərin dərk edilməsi və qarşıya qoyulmuş yaddasaxlama məqsədinin aydın təsəvvür edilməsi hafizə prosesinin məzmunluluğunu və real əhəmiyyət kəsb etməsini təmin edir. Yaddasaxlama şəraitinin normal gedişi prosesində hər bir şagird öyrəndiyi materialın əhəmiyyətini dərk edir və nəticədə mənimsənilən biliklər müəyyən sistem halında hafizədə möhkəmlənib uzun müddət yadda qalır.

Apardığımız müşahidələr göstərir ki, təlim materialının mənalandırılması və materialın məzmununda olan səbəb-nəticə əlaqələrinin başa düşülməsi öyrənmənin səmərəliliyini təmin etməklə şagirdin hafizəsini zənginləşdirir. A.A. Smirnovun apardığı psixoloji təcrübələrin birində şagirdlərə yaddasaxlamaq üçün təklif edilən materialın ayrı-ayrı hissələrinin yeri dəyişdirilmiş və ifadə olunan məzmunun məntiqi ardıcıllığı pozulmuşdur.

Psixoloji müşahidələr göstərir ki, yeniyetməlik yaş dövründə təlim prosesinin təsiri altında mənalı yaddasaxlamaya meyl artır və şagirdlər öyrəndikləri təlim materiallarının ümumiləşmiş məzmununu yadda saxlamağa fəal səy göstərirlər. Yaddasaxlama prosesində anlama və təkrarın təlim materiallarının yada salınması məqsədləri ilə daima əlaqələndirilməsi şagirdin hafizə fəaliyyətinin funksional imkanlarının inkişafına müsbət təsir göstərir. Qeyd edilən cəhət hafizə prosesinin təşkili baxımından böyük əhəmiyyət kəsb edir.

Mənalı yaddasalmaya artan meyl şəraitində şagird öyrəndiyi təlim materialının məzmunu ilə sərbəst rəftar edir və materialı olduğu kimi yaddasaxlamağa cəhd göstərmir. Şagird öyrənilən materialın məzmununun yadda saxlanılması qeydinə qalır və çalışır ki, yada salma prosesində öyrənilən materialın məzmunu bütövlükdə aktuallaşdırılsın. Məzmunlu yaddasaxlama prosesində bəzi yeniyetmələr bir çox çətinliklərlə qarşılaşır və təlim materialının məntiqi ardıcıllığını sərbəst və öz sözləri ilə ifadə etməkdə şagird əsaslı gərginlik keçirir. Məhz buna görə də, şagirdlər təlim materiallarını olduğu kimi eynən yaddasaxlamağa çalışırlar. Şagird öyrəndiyi mətndən kənara çıxa bilmir, onun məzmunu və məntiqi quruluşunu aydın təsəvvür etməkdə çətinlik çəkir. Odur ki, şagird mətni əzbərləyir və ya onu öyrənərkən mətndəki sözləri və ifadələri olduğu kimi yadda saxlamağa çalışır.

Qeyd edilən xüsusiyyət yeniyetmənin hafizə fəaliyyətinin qanunauyğun əlaməti olmaqla şagirdin ümumi əqli inkişafında və onun nitq fəaliyyətinin formalaşmasında mühüm rol oynayır. Məhz bu əsasda şagirdin hafizə fəaliyyəti ilə onun təfəkkürü arasında funksional əlaqə ya-

ranır. Sonuncu məntiqi yaddasaxlamanın təşəkkülü üçün əlverişli zəmin yaradır. Bu yaş dövründə mənalı və sərbəst yaddasaxlamanın inkişafı bilavasitə hafizə fəaliyyətinin funksional imkanlarının genişlənməsi ilə şərtlənir. Burada müəllimin istiqamətləndirici və nəzarət xarakterli göstərişlərinin də mühüm rolu vardır. Hafizə fəaliyyəti ixtiyari prosesdir. Hafizə fəaliyyətinin funksional inkişafı onun ixtiyari idarə olunmasının səviyyəsi ilə şərtlənir. Yaddasaxlama prosesinin ixtiyariliyi artdıqca təlim materiallarının şagirdin hafizəsində saxlanılması və möhkəmləndirilməsi imkanları əsaslı surətdə genişlənir. Şagirdin təlim fəaliyyətində ixtiyari yaddasaxlama əsas yer tutur. Təlim prosesində şagird sistematik olaraq müxtəlif xarakterli materialları öyrənir və mənimsəyir.

Bir çox hallarda mürəkkəb əqli fəaliyyət kimi təzahür edən mənimsəmə prosesi yaddasaxlamanın yüksək ixtiyari səviyyədə idarə olunmasını tələb edir. Belə şəraitdə təlim materiallarının yadda saxlanılmasına şagird gərgin iradi səy sərf etməli olur. Yeniyetmələrdə ixtiyari və qeyri-ixtiyari yaddasaxlama funksional bütövlüyə malik olmaqla mənimsənilən təlim materiallarının xarakterinə uyğun olaraq təzahür edir. Burada təlimin və mənimsəmə prosesinin təşkili səviyyəsinin və xarakterinin mühüm əhəmiyyəti vardır.

Hafizə psixologiyası sahəsində aparılmış tədqiqatların nəticələri göstərir ki, təlim materiallarının səmərəli yadda saxlanılmasında qarşıda müəyyən məqsədin olmasının böyük əhəmiyyəti vardır. İxtiyari yaddasaxlama özünün konkret funksional məzmununu qarşıda müvafiq məqsədin qoyulmasında təzahür etdirir. İxtiyari yaddasaxlamağa meyl hafizə fəaliyyətinin ümumi istiqamətini təyin edir. Konkret yaddasaxlama məqsədinin olması isə şagirdin təlim fəaliyyətinin spesifik məzmununun xarakteri və idrak əhəmiyyəti ilə şərtlənir.

Aydın məqsəd və dərkolunan vəzifə təlim materialının daha möhkəm yaddasaxlanılması və bütöv şəkildə yada salınması üçün əlverişli şərait yaradır. İxtiyari yaddasaxlama prosesində qarşıda ümumi məqsədin olması ilə yanaşı, xüsusi və ayrı-ayrılıqda olan bir sıra konkret məqsədlərin də olması zəruridir. Müşahidələr göstərir ki, mənimsəmə prosesində təlim materialının daha möhkəm yadda saxlamaq zərurətinin şagirdlərə aşılanması böyük əhəmiyyətə malikdir.

Aparılmış psixoloji təcrübələr göstərir ki, şagirdlər qarşısında "qısa müddətli üçün", "uzun müddət" və "həmişəlik" yadda saxlamaq vəzifəsi qoyulduqda sonradan bu özünü yada salma prosesinin dolğunluğunda və səmərəliliyində aydın şəkildə təzahür etdirir. Məlum olmuşdur ki, qarşıya qoyulmuş vəzifənin xarakteri sonradan müvafiq materialın yada salma keyfiyyətində aydın nəzərə çarpmışdır. Məsələn, şagirdlər qarşısında müvafiq materialı "həmişəlik yadda saxlamaq" vəzifəsi qoyulduqda sonradan materialın yada salınması daha səmərəli olur.

Yeniyetməlik dövründə hafizədə təşkil edilən tənzim idarə olunan psixi prosesə çevrilir. Yeniyetmə yaddasaxlama və xatırlama proseslərindən şüurlu surətdə istifadə etməyə başlayır. Onun bu zaman cisim və hadisələri müqayisə etməsi, sistemləşməsi, təsnif etməsi mənalı yaddasaxlamanın inkişafı üçün əlverişli şərait yaradır. Yeniyetmənin materialı öz sözləri ilə danışmaq səyi də bununla əlaqədardır.

Nəzərə almaq lazımdır ki, yeniyetmə, adətən ev şəraitində yaddasaxlamanın nəticəsinin yada salma yolu ilə deyil, tanıma vasitəsi ilə yoxlayır: o, materialı bir və ya bir neçə dəfə oxuduqdan sonra kitabı örtüb öyrəndiyi materialı yada salmaq əvəzinə kitabı açıb mətnə baxır ki, ondan buz zaman belə təəssürat yaranır ki, "hər şeyi bilir". Müəllim isə ondan kitaba baxıb nağıl etməyi deyil, materialı yada salmağı tələb edir. Bu zaman aydın olur ki, yeniyetmə materialı öz sözləri ilə danışsa da, müəyyən səhvlərə və təhriflərə yol verir. Yeniyetmə bir çox hallarda, hətta tərif və qanunları da öz sözləri ilə danışmaq istəyir ki, bu zaman çoxlu səhvlərə yol verir. Müəllim yeniyetməyə mənalı yaddasaxlama priyomlarını öyrədərkən onlara tərif və

qanunları dəqiq yaddasaxlamaq zərurətini izah etməli, dərsdə bu cəhətə həmişə xüsusi fikir verməlidir (1, s. 70).

İxtiyari yadda saxlamanın inkişafında fəal fəaliyyət prosesinin böyük əhəmiyyəti vardır. İstər qeyri-ixtiyari yaddasaxlama, istəsə də ixtiyari yadda saxlama şagirdin fəaliyyət prosesinin təşkili xarakterindən-onun aktiv və müstəqil surətdə yerinə yetirilməsindən asılıdır. Müşahidələr göstərir ki, təlim materiallarının müqayisəli planda öyrənilməsi yaddasaxlama fəaliyyətinin səmərəliyiniə müsbət təsir göstərir. Mənimsənilən cisim və hadisələrin, məlumatların sistematik olaraq qarşılaşdırılaraq müqayisə edilməsi təlim materiallarının dərk edilərək yadda saxlanılması üçün əlverişli şərait yaradır. Psixoloji tədqiqatların nəticələri bir daha göstərir ki, şagirdin hafizə fəaliyyətinin təşkilində anlama mühüm rol oynayır. Mənalı yaddasaxlama prosesində şagird mənimsədiyi bilikləri əlaqələndirir və əldə etdiyi məlumatların sisteminə daxil edir. Mənalı yaddasaxlamanın mühüm cəhətlərindən biri odur ki, şagird müvafiq təlim materialını öyrənərkən keçmişdə əldə etdiyi təcrübəyə və biliklərə fəal surətdə istinad edir.

**Məqalənin aktuallığı.** Yeniyetməlik yaş dövründə diqqətin fəaliyyətində "maraq effekti" bütün aydınlığı ilə müşahidə olunur. Şagirdin bir dərsdə həddindən artıq diqqətli, başqa bir dərsdə isə diqqətsiz və dalğın olması, habelə qısamüddətli hafizə daha aydın şəkildə göstərir ki, hər şey materialın məzmunundan, müəllimin pedaqoji səriştəsindən və yeniyetmənin dərsə münasibətindən asılıdır.

**Məqalənin elmi yeniliyi.** Psixoloji ədəbiyyatda yeniyetmələrin diqqət və hafizəsinin inkişaf xüsusiyyətləri yaş psixologiyasını yeni biliklərlə zənginləşdirməsi baxımından əhəmiyyətlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Təlim prosesində yeniyetmələrin diqqət və hafizəsinin inkişaf xüsusiyyətlərinin müasir dövrün tələblərinə uyğun formalaşması üçün psixoloqlar, pedaqoq və valideynlər tərəfindən istifadə edilə bilər.

## Ədəbiyyat

1. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı: ADPU, 2005.
2. Əlizadə Ə.Ə., Əzimov Q.E., Quliyev E.M. Məktəblinin psixologiyası. Bakı: ADPU, 1990.
3. Əzimli Q. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı: Nurlan, 2008.
4. Həmzəyev M. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003.
5. Смирнова Е. О.Детская психология. М.: Владос, 2003.
6. Поливанова К. Психология возрастных кризисов. М.: Просвещение, 2000.
7. Обухова Л.Ф. Возрастная психология. М.: Просвещение, 1999.

**Н.Т. Рзаева**

## Особенности развития внимании и памяти подростков в процессе обучения

## Резюме

В статье указывается, что периоде подросткового возраста в развитии внимании возникают значительные черты. Истец справедливо отмечает, что учебная деятельность требует самоконтроля основываясь на отражению. Поэтому все особенности внимании

развиваются в процессе обучения. Когда произвольность процесса запоминании увеличивается тогда сохранения и укрепления материалов обучения в сознании учеников расширяются. Произвольное запоминание занимает основное место в деятельности обучении учащихся.

**N.T. Rzayeva**

## Features of attention and memory teenagers in learning

## Summary

The article states that the period of adolescence in the development of attention there are significant features. Plaintiff correctly notes that training activities require self-control based on the reflection. Therefore, all of the features on developing the learning process. When memorizing arbitrary process increases while preserving and strengthening the training materials in the minds of pupils dilate. Voluntary memorization takes the main place in the learning activities of students.

**Redaksiyaya daxil olub:** 10.09.2020